

# PROFESSOR HAMLET İSAXANLI: "EYNŞTEYN AZƏRBAYCANDA OXUSAYDI, ONA ATTESTAT VERMƏZDİLƏR"

*2017-ci il iyulun 18-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə dərc olunmuş müsahibəni təqdim edirik.*

Təhsilin ən ali məqsədi insanlara bərabər imkanlar yaratmaqdır - bu sözləri *sherg.az*-a yaxşı və pis oxuyan şagirdlərdən danışarkən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı söyləyib. O qeyd edib ki, insanlar öz qabiliyyətlərinə görə fərqli ola bilərlər, fərqli düşünə bilərlər:

"Bu artıq onların özlərindən asılıdır. Amma əsas odur ki, dediyim kimi, onlara bərabər imkanlar yaradılsın. Zəif oxuyanı da, əlili də, güclü oxuyanı da oxutmaq lazımdır. Oxutmağın da müəyyən taktikaları, qaydaları, yolları var. Məktəblər və pedaqoqlar onun üzərində düşünməlidirlər ki, zəif oxuyanı yaxşı oxuyanın səviyyəsinə necə çatdırsınlar. Belə düşünürəm ki, dünyada bir nəfər də olsun istedadsız uşaq yoxdur. Sadəcə biri bir şeyi sürətlə, digəri isə çox yavaş qavrayır, biri bir sahəni, digəri digər sahəni istəyir.

Eynşteyn bizim orta məktəblərdə oxusaydı, ona attestat verməzdilər. Çünki o, çox yavaş düşünən adam olub. Ona test versələr, zəif çıxardı. Bəzi insanların içərisində elə qabiliyyət yatır ki, məktəb, müəllim və valideyn onu ortaya çıxara bilmir. Çünki ona uyğun şərait yaranmayıb. Biri kimyanı çox böyük sürətlə qəbul edir, biri isə onu qəbul edə bilmir, amma çox yaxşı müsiqi duyumu olur. Ona görə, birincisi, uşaqların istedadlarını ortaya çıxarmaq lazımdır. Əvvəlcə onu istedadı olan tərəfə yönəltmək gərəkdir. Eybi yoxdur, qoy digər fənləri orta oxusun.

Əlbəttə, ikinci dərəcəli saydığın fənlər barədə də təsəvvürün olmalıdır. Ona görə, orta məktəblərin yuxarı siniflərində ixtisaslaşma meyli, cərəyanı olmalıdır. Bu, çox mühümdür ki, ədəbiyyatçı olanla, mühəndis olan orta məktəbin son iki ilini eyni proqramla oxumasınlar. Bu, qəribədir, hətta gülməlidir. Mühəndis riyaziyyat, fizika və kimya bilməlidir, ədəbiyyatçı isə ədəbiyyat bilməlidir, yaxşı yazı yazmağı bacarmalıdır, həyat müşahidələrini yaxşı aparmalıdır. Bu mənada uşaqların qavrama qabiliyyətləri və sahələri fərqli olur. Məktəblər xüsusi çalışmalıdırlar ki, "zəif oxuyur" dedikləri uşağın hansısa sahədə bacarığını aşkarlasınlar.

Mən bu problemi universitet baxımından da bilirəm. Bizə bəzən uşaqlar gəlir, görürsən ki, biri 300 balla, digəri isə 500 balla qəbul olunub. Elə olub ki, 300 balla qəbul olunan universiteti daha yaxşı nəticələrlə başa vurur. Çünki, gəlib orada bir yarış mühitinə düşür, onun qabiliyyətləri aşkarlanır, onda həvəs yaranır. Görür ki, burada hər kəsə bərabər münasibət var və o da açılışır, yaxşı oxuyur. Mən belə bilirəm ki, təhsil sistemində və cəmiyyətdə azad mühitin olması çox vacibdir".

**Ayyət Əhməd**

*http://www.sherg.az/site/id-34225/%22Eyn%C5%9Fteyn_Az%C9%99rbaycanda_oxusayd%C4%B1,_ona_atestat_verm%C9%99zdil%C9%99r%22#Kalibri*

## INTERVIEW WITH PROFESSOR HAMLET ISAKHANLI IN "SHARQ" NEWSPAPER

On July 18, 2017, an interview entitled "If Einstein had studied in Azerbaijan he would not have been given a certificate", with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was published on the website of the "Sharq" newspaper. In the interview, Professor speaks about the necessity of creating an equal, free environment in the education system and other issues.

The interview can be read via the link below:

*http://www.sherg.az/site/id-34225/%22Eyn%C5%9Fteyn_Az%C9%99rbaycanda_oxusayd%C4%B1,_ona_atestat_verm%C9%99zdil%C9%99r%22#Kalibri*